**“Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” və “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

1. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, 8, maddə 890; 2016, 3, maddə 428, 11, maddə 1768, 12, maddə 2016; 2017, 5, maddə 739; 2018, 11, maddələr 2187, 2200; 2019, 1, maddə 29, 2, maddə 201, 6, maddə 1005; 2020, 7, maddə 857; 2021, 5, maddə 429) 2.3-cü maddəsinə “su” sözündən sonra “, istilik” sözü əlavə edilsin.

2. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 10, maddə 1109; 2017, 11, maddə 1973; 2018, 11, maddə 2232, 12 (I kitab), maddə 2520; 2019, 2, maddə 202, 6, maddə 1006; 2020, 3, maddə 224; 2021, 3, maddə 216, 5, maddə 429; 2022, 2, maddə 94) 2.1-ci maddəsinə ikinci halda “su” sözündən sonra “, istilik” sözü, “paylayıcı şəbəkəyə” sözlərindən sonra “və ya istilik şəbəkəsinə” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 iyun 2022-ci il
547-VIQD